İCBARİ TİBBİ SIĞORTA

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi



# MƏNİM AİLƏ HƏKİMİM



# Ailə həkimi kimdir?

- Ailə həkimi ailə üzvlərini müayinə və müalicə edir
- Sağlam həyat tərzi haqqında məsləhətlər verir
- Xəstəliklərin profilaktikası ilə məşğul olur
- Sanitar-gigiyenik maarifləndirməni həyata keçirir
- Tibbi göstəriş olduğu halda xəstəni göndəriş vərəqəsi ilə ixtisaslı həkim müayinəsinə göndərir

Ailə həkimi (sahə həkimi-terapevti, sahə həkimi-pediatrı) sığortaolunanlara ilkin tibbi-sanitariya yardımı göstərən həkimdir.

i Sığortaolunan – sağlamlığı icbari qaydada sığortalanmış fiziki şəxs

# Ailə həkimini necə seçmək olar?

Sığortaolunan ailə həkimini seçmək və məhdudiyyət qoyulmadan dəyişməkdə sərbəstdir.



Sığortaolunan yaşadığı ərazi üzrə ən yaxın olan ilkin tibbi-sanitariya yardımı göstərən dövlət tibb müəssisəsinə (poliklinika/Ailə Sağlamlıq Mərkəzi/kənd həkim məntəqəsi) müraciət etməlidir.

Ərizə dolduraraq ailə həkimini seçməlidir.

Qeydiyyatçıya ərizə ilə yanaşı, şəxsiyyət vəsiqəsini və yaşadığı ünvan üzrə qeydiyyata dair sənədi də təqdim etməlidir.

Ailə həkimini seçərək sığortaolunan tibb müəssisəsinə təhkim olunur.

18 yaşına çatmayan sığortaolunanların tibb müəssisəsinə təhkim olunması üçün ərizə onların qanuni nümayəndələri (valideynlər, övladlığa və himayəyə götürənlər, qəyyumlar) tərəfindən verilir.

Sığortaolunan ailə həkimini seçmədiyi halda “Sığortaolunanların ilkin tibbi-sanitariya yardımı üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası” əsasında ailə həkiminə təhkim olunacaq.

Qayda ilə tanış olmaq üçün **QR kodu** oxudun.



## Sığortaolunan qeydiyyata alınmaq üçün iki və ya daha çox tibb müəssisəsinə müraciət edə bilər?

Sığortaolunan eyni zamanda iki və ya daha çox tibb müəssisəsinə qeydiyyat üçün müraciət edə bilməz.

## Sığortaolunan qeydiyyata alındığı tibb müəssisəsini dəyişə bilər?

Sığortaolunan qeydiyyata alındığı tibb müəssisəsini öz arzusu ilə qeydiyyata alındığı gündən etibarən azı 1 təqvim ili keçdikdən sonra dəyişə bilər.

Sığortaolunan yaşadığı ərazini dəyişdikdə yeni ərazidəki tibb müəssisəsinə yuxarıda göstərilən vaxt məhdudiyyəti nəzərə alınmadan qeydiyyata alınmaq üçün müraciət etməlidir.

# Ailə həkiminə hansı halda müraciət etmək lazımdır?

Təcili və təxirəsalınmaz tibbi yardım* istisna olmaqla, sığortaolunan səhhətində yaranan narahatlıqla bağlı ailə həkiminə müraciət edə bilər.

Təcili və təxirəsalınmaz tibbi yardım tibb müəssisəsinin Təcili tibbi yardım şöbəsi və ya Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası tərəfindən göstərilir.



Ailə həkimi sığortaolunanı müayinə və müalicə etdikdən sonra ixtisaslı tibbi yardıma ehtiyac olarsa, ixtisaslı həkimə göndəriş verir.

## AİLƏ HƏKİMİNƏ MÜRACİƏT EDİN!

# Ağrı

Baş ağrısı

Boğaz ağrısı

Qulaq ağrısı

# Travma

Yüngül əzilmə

Gərilmə

## TƏCİLİ TİBBİ YARDIMA ZƏNG EDİN!

# Ağrı

- Döş qəfəsində deşici, küt, sıxıcı və sızıldayan ağrı
- Qusma və tarazlığın pozulması ilə müşayiət oluna bilən qəfil yaranmış güclü və şiddətli baş ağrısı
- Təkrar qusma ilə müşayiət olunan dözülməz qarın ağrısı

# Travma

- Bədənin zədələnmiş hissəsində şişkinlik, qanaxma
- Hərəkətin məhdudlaşması
- Yara, yanıq, elektrotravma və ya elektrik vurması
- Tənəffüs yolları, həzm orqanları və bədənin digər nahiyəsinə yad cismin düşməsi
- Heyvan və həşəratların dişləməsi (it, pişik, ilan və s.)

## AİLƏ HƏKİMİNƏ MÜRACİƏT EDİN!

# Xəstəliklər, fizioloji vəziyyətlər və onların ağırlaşması

- Yuxarı tənəffüs yollarının infeksion xəstəlikləri (zökəm, öskürək, qulaq ağrısı, baş ağrısı)
- Mədə-bağırsaq sistemi ilə bağlı şikayətlər (ürəkbulanma, qusma, qıcqırma, qarın ağrısı, qəbizlik)
- Allergik əlamətlər (dermatit, astma, pollinoz, şişkinlik)
- Hava çatışmazlığı hissi və sinədə ağrı ilə müşayiət olunmayan ürək ritminin pozulması
- Tez-tez baş verən sidik ifrazı, sidik ifrazı zamanı diskomfort və sancı, çətin sidik ifrazı
- Cinsi orqandan ifrazat, cinsi yolla keçən xəstəliklərə şübhə yarandıqda
- Görmə qabiliyyətinin zəifləməsi, gözdə ifrazat, göz iltihabı
- Eşitmə qabiliyyətinin zəifləməsi, qulaqda səs-küy, qulaqdan ifrazat
- Xroniki xəstəliyin ağırlaşması
- Arterial təzyiqin qalxması və ya enməsi

## TƏCİLİ TİBBİ YARDIMA ZƏNG EDİN!

# Xəstəliklər, fizioloji vəziyyətlər və onların ağırlaşması

- Hava çatışmazlığı hissi və sinədə ağrı ilə müşayiət olunan, uzun müddət davam edən ürək ritminin pozulması
- Sidik ifrazının ləngiməsi
- Hədsiz zəiflik, fiziki cəhətdən tükənmə hissi
- 38.5 dərəcədən aşağı düşməyən yüksək hərarət
- Davamlı qusma, kəskin bağırsaq infeksiyaları
- Təngnəfəslik, astma tutması
- Bütün bədəndə səpki, dilin şişməsi və udmaqda çətinliklə müşayiət olunan kəskin allergik reaksiya
- Tromboz əlamətləri - aşağı ətrafda, əsasən baldır əzələləri nahiyəsində qəfil yaranmış ağrı və şişkinlik, ətrafların soyuması, solğun və ya qırmızı-bənövşəyi rəng alması
- İnsultun əlamətləri – qəflətən meydana çıxan nitq pozuntusu, bədənin yarı hissəsinin iflici, zəiflik, hissiyyatın pozulması (məsələn, toxunma, təmas və s.), ağız kənarında keyləşmə, tarazlığın pozulması, baş gicəllənməsi, yaddaşın və ya huşun itirilməsi

## AİLƏ HƏKİMİNƏ MÜRACİƏT EDİN!

# Qanaxma

- Nəcisdə qan izləri
- Bəlğəmdə qan qarışığı
- Tez-tez baş verən burun qanaxmaları

# İltihab

- Səpki
- Qızartı
- Qaşınma

# Psixikanın pozulması

- Depressiya (çarəsizlik və həyata marağın azalması)
- Ruh düşkünlüyü
- Narahatlıq və yuxusuzluq
- Aludəçilik (məsələn, qumara, oyuna və s.)
- Davranışda problemlər (həyəcan, müxtəlif növ fobiyalar və s.)

## TƏCİLİ TİBBİ YARDIMA ZƏNG EDİN!

# Qanaxma

Mədə-bağırsaq qanaxması

Sidikdə qan

Kəskin burun qanaxması

# İltihab

Ağrı və qızdırma ilə müşayiət olunan irinləmələr və irin yığılması

İltihablaşmış yaralar

# Psixikanın pozulması

Pasiyentin özü və digər şəxslər üçün təhlükəli olan psixi pozğunluq

Kəskin psixoz (qarabasma, paranoya)

İntihara cəhd

Qarışıq vəziyyət (əhvali-ruhiyyənin kəskin pozulması)

# İcbari tibbi sığorta ilə tibbi xidmətlər

## ÖDƏNİŞSİZDİR

## İCBARİ TİBBİ SIĞORTAYA HANSI TİBBİ XİDMƏTLƏR DAXİLDİR?

- İlkin tibbi-sanitariya yardımı (ailə həkimi xidməti)
- Təcili və təxirəsalınmaz tibbi xidmət
- İxtisaslaşdırılmış ambulator tibbi xidmət
- Fizioterapiya xidməti
- Laboratoriya xidməti
- İnvaziv radioloji xidmətlər (angioqrafiya)
- Cərrahi tibbi xidmətlər
- Stasionar terapevtik tibbi xidmətlər